**UOT: 101.01**

# KOMMUNİKASİYA VƏ DİALOQ MƏDƏNİYYƏTİ PROBLEMİ: ZAMAN VƏ MƏKAN PARALELLİYİ KONTEKSTİNDƏ

**Şölət Zeynalov**
fəlsəfə üzrə fəlsəfə doktoru, dosent
AMEA Fəlsəfə və Sosiologiya İnstitutu
sholet@mail.ru
ORCID: 0000–0003–2509–1159
DOI:10.30546/ifs.2022.1(38).91

**Xülasə.** Məqalədə müasir münasibətlər sistemində ciddi əhəmiyyətə malik olan müharibə, sülh, dialoq, dialoq mədəniyyəti, kommunikasiya, elm, bilik və s. kimi problemlərə fəlsəfi baxış əks olunmuşdur. Burada qeyd edilir ki, elmin, texnikanın yaratdığı imkanlar bir tərəfdən insan rifahına, əməyin yüngülləşməsinə, "zamanın" sürətlənməsi və "məkanın" əlçatanlığına səbəb olsa da, insanlar, dövlətlət və cəmiyyətlər arasında ziddiyyətlər də silsilə ilə artır. Müəllifin qənaətinə görə, hazırda dünyada baş verən müxtəlif ziddiyyətlərin həllində və təfsir edilməsində ortaq bir yolun – konsensusun tapılması üçün məhz qeyd edilən kommunikativ anlayışlara apelyasiya zərurət təşkil edir. Həmçinin, məqalədə Azərbaycanın həyata keçirdiyi təhlükəsizlik, sülh, dialoq və kommunikativ strategiyaya nəzəri baxış əks olunmuşdur.

**Məqsəd:** Müasir münasibətlər sistemində dialoq, dialoq mədəniyyəti və kommunikasiya kimi paradiqmaların birgəyaşayış və sülhün təmin edilməsi probleminə fəlsəfi və praktiki aktuallığını göstərmək.

**Metodologiya:** müqayisəli təhlil, dialektik, empirik, elmi metod, tarixi analiz və sintez metodları.

**Elmi yenilik:** Birgəyaşayış və sülhün təmin edilməsi işində bilik, dialoq mədəniyyəti və kommunkikativ refleksiyaların tarixi və müasir interpretasiyasını vermək;

– Zaman və məkan paralelliyi kontekstində Azərbaycanın həyata keçirdiyi sülh və birgəyaşayış paradiqmasına dialoq mədəniyyəti kontekstindən yanaşma .

**Açar sözlər:** zaman, məkan, tarix, müharibə, sülh, dialoq mədəniyyəti, kommunikasiya, Azərbaycan.

## Giriş/Introduction

Ədəbiyyatda mütəxəssislər hazırda siyasi, sosial, iqtisadi, geopolitik, hüquqi və s. o cümlədən ideoloji cəhətdən Yeni dünya nizamının formalaşmasından, yeni münasibətlər sisteminin əmələ gəlməsindən, bunun nəticəsində beynəlxalq, regional və lokal ziddiyyətlərin artmasından bəhs edirlər. Əlbəttə, fəlsəfə tədqiqatçısı üçün aydındır ki, bu kimi ziddiyyətlər tarixən hər bir epoxa üçün xarakterik olmuşdur. Lakin məsələ ondadır ki, indi elmi-texniki vasitələr, informasiya resurslarının əlçatanlığı, qlobal inteqrasiya və ümumiyyətlə sivilizasiyanın inkişaf dinamikası və bu dinamikanın ümumi analizi, bütövlükdə İnsan nəslinin humanitar problemlərin dərki istiqamətində refleksiyaları göstərir ki, ziddiyyətlər səngimək istiqamətində deyil, əksinə daha da sürətlənmək tendensiyası götürməkdədir. Bütün bunlar faktdır və fakt odur ki, indi həqiqətən də xalqlar, millətlər, cəmiyyətlər və hətta ideoloji birliklər (məsələn, slavyan sivilizasiyasının iki böyük (əslində eyni) aparıcı sütununun mədəni, milli, identikliyinin – Ukraniya və Rusiya arasında yeni böhran və büfükasiya nöqtəsinin əmələ gəlməsi və s.) tərəfindən tarixən formalaşmış dünya nizamının strukturunda ciddi dəyişikliklər baş verməkdədir. Bütün bu dəyişikliklər isə öz növbəsində, hər şeydən əvvəl, müasir inkişafın məna və mahiyyətində, həm də əslində, bəşəri mövcudluğun həyati vacib elementlərinin qorunub saxlanılmasında, sabitlik və əminamanlığın bərqərar olmasında həyati əhəmiyyət daşıyan anlayışların – sülh və təhlükəsizlik, dialoq, dialoq mədəniyyəti, kommunikasiya, bilik və s. kimi fəlsəfi probleminin təkrar-təkrar mənalandırılması,

həm də aktuallığını bir daha təsdiqləmiş olur. Məqalədə yuxarıda qeyd olunan problemin nəzəri və praktik interpretasiyasından çıxış olunur.

## Əsas hissə / Main partt

### *Sülh və müharibə – konfrontasiyanın genezisinə qısa baxış*

Girişdə qeyd edilən problemin fəlsəfəsindən çıxış edərkən ilk baxışda sadə görünən, lakin mahiyyətcə sivilizasiya tarixinin bütün dövrlərində insan təfəkkürünü düşündürən bir sual yaranır: Sülh, dialoq mədəniyyəti, kommunikasiya və s. kimi anlayışlar - qavramalar nədir və onlara nail olmaq üçün insan nəsli nə etməlidir? Yaxud müharibə və münaqişələr sivilizasiyamızın əbədi taleyidirmi? Analizlər göstərir ki, irəli sürülərkən son dərəcə sadə görünən, lakin həyata keçməsi, həlli elə də asan olmayan bu kimi sualların birmənalı cavablandırılması fəlsəfi anlamda tam mümkün olmasa da, qeyd edək ki, tarixən hər bir cəmiyyət, dövlət və insani birliklər bütün rəngarəng konfliktlərdən, müharibə və münaqişələrdən çıxış nöqtəsi tapmaq üçün son anda bu kimi anlayışlara – dialoq fəlsəfəsinə, kommunikasiyaya, dialoq mədəniyyəti və ümumiyyətlə, tarixə və tarixi təcrübəyə, biliyə apelyasiya etmişlər – ehtiyaclı olmuşlar.

Lakin, hər şeydən əvvəl, onu da qeyd edək ki, tarixən olduğu kimi, sülh, birgəyaşayış, kommunikasiya, dialoq mədəniyyəti və onun formalaşması problemi hazırda da problem olaraq qalır və güman etmirik ki, bu kimi bəşəri məsələlər istər mədəniyyətlərarası əlaqə və münasibətlərdə, istərsə də həyatın digər sosial, milli, dini, və s. sivilizasion, tarixi sferalarda tezliklə öz həllini tapacaqdır – çünki söhbət burada tarixən formalaşan sivilizasion münasibətlərdən, insanın təbiətindən, olsun ki, insan təfəkküründə formalaşmış arxetiplərdən gedir. Arxetiplərdən imtina etmək isə indi insan təfəkkürü üçün az qala özündən imtina kimi görünür. Məsələn, YUNESKO Nizamnaməsinin Preambulasından oxuyuruq: *"Müharibə haqqında fikirlər insanların beynində əmələ gəlir. Ona görə də insanların şüurunda sülhü müdafiə ideyasını möhkəmlətmək lazımdır".* Göründüyü kimi, qeyd edilən tezis əsl həqiqətdə çox gözəl ideyadır və onun həyata keçirilməsi tarixən insan nəslinin, müasir sivilizasiyanın, fəlsəfə və elmin qarşısında dayanan ən vacib prioritetlərdən biridir. Lakin fəlsəfə tarixindən məlumdur ki, tarixən dünyada mövcud olmuş bəşəri pozitiv ideyaların həyata keçməsi, onların insan təfəkküründə, sosial sferada, dünyagörüşündə qələbəsi asan olmamışdır; Yaxud məsələ bu qədər sadə və asan olsaydı Yer üzündə çoxdan bəhs olunan problem – ziddiyyətlər öz həllini tapmış olardı. Belə bir məqamda fəlsəfəyə müraciət etmək zərurəti yaranır. Alman filosofu K. Yaspers vaxtilə müharibə və sülh probleminin fəlsəfi mahiyyətindən çıxış edərək yazırdı: *"Müharibənin olacağına əmin olan elə öz əminliyilə onun olmasına kömək edir. Sülhün saxlanacağına əmin olan laqeyid olur və özü də bilmədən müharibəyə hazırlaşmada iştirak edir. Təkcə təhlükəni görən və bir an onu unutmayan kəs ağıllı mövqe tuta və müharibənin önlənməsi üçün mümkün olan bir şey edə bilər" (7, s. 229).* Qeyd olunan bu iqtibasın analizi sübut edir ki, həqiqətən də hazırda qlobal anlamda İnsan nəsli son dərəcə çətin bir problemlə üz-üzə dayanmışdır və o, – *İnsan* bir tərəfdə ekoloji, texniki, sosial, psixoloji və s., digər tərəfdən də humanitar problemlər kontekstində – birgəyaşayış problemi və sülhə necə nail olmaq dilemması ilə üz-üzədir. Fakt odur ki, *dəyişikliklər epoxası* kimi xarakterizə edilən müasirlik, əslində, elə ciddi silsilə böhranlarla müşahidə olunur ki, onun hətta fəlsəfi izahı da bəzən mümkün görünmür. Lakin müşahidələr göstərir ki, problem, hər şeydən əvvəl, tarixən olduğu kimi, həm fəlsəfənin, həm elmin, həm siyasət və ümumiyyətlə, İnsan varlığın üzərinə bəşəri bir vəzifə qoyur: ortaq yol, "qızıl orta hədd", "dialektik vəhdət", "konsensus", "yüksək təfəkkürlü kommunikasiya", "yeni dialoq mədəniyyəti" və s. kimi anlayışlar bilik, elm və texniki tərəqqi əsri kimi xarakterizə edilən müasir zamanda terapiya üsulu kimi çıxış etdiyindən hər bir cəmiyyət onlara apelyasiya etməlidir; alternativ ya yoxdur, ya da ki, müharibə, irqçilik, "özgələşmə" və s. kimi mənfi meyillər əbədi olaraq sivilizasiyanın taleyi kimi çıxış edəcəkdir. Seçim çox məhduddur; problem ondadır ki, insan seçmək şansını elə bir ki, tarixin labirintində itirmişdir. Təsadüfi deyidir ki, fəlsəfə tarixinə və ümumiyyətlə tarixə münasibətin formalaşması və dəyişməsindən söhbət gedərkən M. Fuko hesab edirdi ki, *"insan bəşəri idrakın qarşısında duran*

*məsələlərdən heç də ən qədimi və ən daimisi deyildir. Və onun sonu, ehtimal ki, uzaq deyildir" (4, s. 31)*

***Dəyişiklik epoxasının problemləri və ya ontoloji bönran***

Biz yuxarıda qeyd etdik ki, siyasi, fəlsəfi, elmi və s. ədəbiyatda hər kəsi fundamental sınağa çəkən qəribə bir fikir mövcuddur: *"Hazırda yaşadığımız dünya qlobal dəyişikliklər dövrü kimi xarakterizə edilir"(12).* Bu ifadə artıq demək olar ki, elmi, siyasi, fəlsəfi, sosial və s. ədəbiyyatda, informasiya və KİV vasitələrində gündəmi zəbt etmişdir. Lakin biz etiraf etməliyik ki, televiziya, internet, informasiya resurslarında gündəlik termin, ola bilər ki, adi söz kimi işlədilən bu ifadənin əslində dərin fəlsəfi, ontoloji, eksistensial mənası vardır – dəyişikliklər epoxasi. Fakt odur ki, indi hər şey dəyişir, hər kəs (individ, cəmiyyət, loqos, mədəniyyət, din və s.) bu dəyişiklikdə nəyisə qazanır, nəyisə itirir, ancaq bu itkilərin nisbi faizi o qədər faciəvidir ki, belə bir kontekstdə filosoflar İnsan nəslinin sonunun da gələcəyini düşünməkdədirlər. Elə bu səbəbdən də bu dəyişiklik dövrü demək olar ki, XX əsr Qərb fəlsəfi təfəkküründən başlayaraq fəlsəfi, humanist və mədəni fikrində "tənəzzül epoxası" kimi təsəvvür edilməkdədir. Qəribəsi, daha doğrusu problem ondadır ki, elmi ədəbiyyatda məsələn, fransız filosofu M. Fukodan sonra *"insanın yoxaçıxma ehtimalından Delez, Fukuyama, və başqaları da danışmağa başladılar" (4, s.32).* Başqa tərzdə desək, XX əsr Qərb nəzəri fikrində haqlı olaraq O. Şpenqler, A. Toynbi, M. Haydegger, K. Yaspers və b. filosoflar elə bir nəticəyə gəlib çıxdılar ki, total dəyişmələr dövründə insan özünü tarixin labirintində "itirə", "məhv ola", "həlak ola" bilər – yaratdıqları elm və texnikaya özünü qurban verə bilər. Bu baxımdan hazırda qlobal dəyişikliklərdən çıxış edərkən *"ədəbiyyatda çağdaş dövrün təsvirində "paradoks", "risk", "qeyri-müəyyənlik", "xaos", ""sürətli dəyişmələr", "təhdidlər", təhlükələr kimi terminlərə tez-tez rast gəlinir". (2, s.10).* Heç də təəccüblü deyil ki, nəzəri interpretasiyaların təsiri altında siyasət və ideologiyalar da bu problemi indi özünün prioriteti seçmişdir və hazırda demək olar ki, "həyəcanlar" böyük siyasətin, dünyanın taleyini müəyyən edən siyasilərin leksikonunda özünə vacib və əhəmiyyətli dərəcədə yer almışdır. Lakin bu dəyişikliklərin həyatımıza gətirdiyi müsbət xüsusiyyətlərdən bəhs etmək nəzəri anlamda ciddi problematika hesab olunur, hətta bəzən risklərin və çağırışların proqnozlaşdırılması belə mümkün görünmür. Problemə fəlsəfi kontekstdə yanaşarkən mütəxəssislərin rəyinə görə, məsələn, *"klassik fəlsəfi anlamda bu mənzərə "obyektiv reallıq"la "insan təfəkkürü"ndə gedən proseslərin oxşarlığı kimi izah edilə bilər" (2, s.10).* Lakin qeyd edək ki, yeni dövrün paradiqmaları kontekstində bəzən baş verən proseslərin dinamikası nəinki klassik fəlsəfi kateqoriyalarla, o cümlədən yeni postqeyriklassik elmi paradiqmalarla uzlaşmır. Məsələn, belə bir məqamda Fukonun tarixə yanaşmaları daha cəlbedici görünür: Belə ki, fransız filosofunun tarix barədə tezisləri *"Hegeldəki kimi vahid qanuna tabe olan proses kimi deyil, çoxlu müxtəlif (dialoqu, və pülüral çoxluqları özündə ehtiva edən tarixi tendensiyanı – Ş. Z.) tarixlər kimi nəzərdən keçirməyə imkan verdi" (4, s.32)* və bu imkan şübhəsiz müasir elmin, fəlsəfə və praktikanın reallığında əks olunur – həm müsbət, həm də mənfi anlamda. Bu səbəbdən də sual yaranır: epstemologiya, qnoseologiya və ümumiyyətlə həyat fəlsəfəsi həqiqətənmi bu kimi sualları mənalandırarkən dilemma qarşısında qalır; yəni söhbət ondan gedir ki, elmin, texnikanın nailiyyətləri hər an artsa da, bütövlükdə insanin Yer üzündə yaşayışı daha da çətinləşir və s. Elmin texnikanın yaratdığı imkanlar bir tərəfdən əməyin yüngülləşməsinə, "zamanın" sürətlənməsi və "məkanın" əlçatanlığına səbəb olsa da, ziddiyyətlər də silsilə ilə artır. Ona görə də burada – məqalədə sual bu aspektdə formulə olunur: İndi siyasətdə, regional münaqişə və qlobal dünya nizamında baş verən tendensiya humanizm prinsiplərinə, yaxud dehumanizasiya anlayışına daha çox müncər oluna bilər? Bilik və elm bizi bəşəri xoşbəxtliyə, yoxsa bəşəri fəlakətlərə sürükləyir? Ümumiyyətlə, fəlsəfədə və müasir elmi paradiqmalarda bəhs olunan *Post Homo Sapiens – (Yaradıcı və yüksək təfəkkürlü qeyri -aqressiv insan) tipi* mülahizəsinə müasir insani fəaliyyət hansı dərəcədə şamil oluna bilər? Həqiqətənmi hər cür insani fəaliyyət fəlakət törədir? *(3*). Təsadüfdənmi, yaxud real fəlakətlərin zərurətindənmi tarixin "qırılma", "sovrulma" məsələləri Fuko fəlsəfəsində "fəlsəfə tarixi üzrə tədqiqatların mərkəzində durur"? *(4, s.32).* Məsələ ondadır ki, sivilizasiya tarixi nəzərdən keçirilərkən xalqların

və sivilizasiyaların tarixi nəzəri fikirdə konfliktlər, etnik, dini, çoğrafi, milli, ideoloji xarakterli ziddiyyət tarix kimi səciyyələndirilir və bu kimi nəzəri və praktiki interpretasiyaları, əlbəttə ki, inkar etmək tarixilik nöqteyi-nəzərdən məqbul hesab edilə bilməz. Tarix baş vermiş hadisələr toplusudur, bizim tarixi keçmişə təsir etmək imkanımız yoxdur! Amma problem onda deyil ki, yaşadığımız zamanaqədərki tarix, yuxarıda qeyd olunan problemlərin məcmusu kimi dərk edilir, əksinə, elə müasir sivilizasiyamızın hazırkı siyasi, mədəni, ictimai, çoğrafi, geostrateji, ekoloji və s. sferaları da nəzərdən keçirilərkən məlum olur ki, tarixən baş vermiş problemlər toplusu inkar və təkzib oluna bilməməklə yanaşı, həmin ziddiyyətlər bu gün də davam etməkdədir və hətta elmi paradiqmalar da onların bəzən etimologiyasını, sosial-pisixoloji xarakteristikasını, ontoloji, ekzistensial, idrakı anatomiyasını izah edə bilmir; bu izahetmələrdə tarixi yanılmalar həqiqət, həqiqət isə yanılmalar kimi təsvir edilir. Halbuki fəlsəfə tarixindən həm də bizə məlumdur ki, *"maddi və ideal (şüur) bölgüsü nisbidir. İnsan təkçə təbiyətə qarşı deyil, o həmçinin onun immanent hissəsi olmalıdır. O, təbiəti idarə etməməli və onunla başqa, məsələn, dialoq münasibətlərində olmalıdır" ( 8, s. 157).* Ona görə də mübaliğəsiz qeyd etmək lazımdır ki, tarixin fəlsəfi dərki yalnız **"***vahid qanuna tabe olan proses kimi deyil, çoxlu müxtəlif tarixlər kimi nəzərdən keçirməyə imkan"(4, s.32)* verən alternativlərin də mənalandırılmasına imkan yaratmalıdır. Fakt odur ki, nəzəri mülahizələrdən adi sosial, siyasi, iqtisadi, mədəni həyata döndükdə görürük ki, elmi-texniki tərəqqi, internet, nonotexnologiyalar əsri və s. – texniki era kimi həyatımıza daxil olan yeni dövrün dəyişiklikləri cəmiyyətləri, millət və etnik qurupları, daha geniş anlamda isə sivilizasiyamızı nəinki ortaq dialoji atmosferə gətirmək iqtidarında deyildir, əksinə, bu vasitələrdən də hər kəsin istifadə hüququ və bu istifadədə ixtiyarilik elə bir həddə çatmışdır ki, hər cür baş verən yeniliklər dağıdıcılığa xidmət etsə də, "quruculuq" və ya inkişafın dialektik ziddiyyətləri kimi təsəvvür olunur. Biz bunu insan əmək münasibətləri, daha geniş anlamda isə kapitalizm formasiyası kimi xarakterizə edirik. Aydındır ki, kapitalizmin son həddi, demokratiyanın yüksək səviyyədə inkişafı kimi, hər kəsin imkanlarının bərabərləşdirməyini deyil, hər kəsə qabiliyyətinin reallaşdırılması üçün bərabər imkanların yaradılmasını "tövsiyə edir". Lakin bu tövsiyə indi elə bir həddə çatıb ki, insan Yer üzünün tiranına çevrilməkdədir, ola bilsin ki, çevrilib. Bütün bunlarla bərabər maraqlıdır ki, indi az qala hər kəs kapitalizmin böhran həddindən danışmağa başlamışdır. Elm xadimləri qeyd edir ki, kapitalizmin mövcud modeli özünü tükəndirib, lakin buna baxmayaraq o, bu gün dünya ölkələrinin böyük əksəriyyətində ictimai quruluşun əsasıdır və ondan hansısa formada imtina belə ağlasığmaz görünür. Başqa sözlə, bu "imtinanın" tarixi təcrübədə - "sosializm və komunizm" ideyaları formatında dünya sivilizasiya tarixində nələri yaratdığı da insan nəslinə yaxşı məlumdur**.** Əlbəttə, bu o demək deyildir ki, həmin ideyalar yanlış idi. Ümumiyyətlə, biz burada yalnız həmin faktı xatırlatmaqla tarixi təcrübə ilə insan, sivilizasiya, dövlət, millət və etnos anlayışlarının insan nəslinin inkişaf dinamikasında, o cümlədən "fiziki" inqilabların bəşəriyyətə, tarixi prosesə gətirdiyi faciələrə diqqəti çəkmək istəyirik. Bu anlamda müasir Azərbaycan filosofu İlham Məmmədzadə haqlı olaraq qeyd edir ki, Fukonun tarix barədə fəlsəfi baxışları ümumi anlamda aşağıdakı kimi təsvir edilə bilər:*"Tarix vahid mərkəzin ətrafında olan-bitən hər şeyin cəm edilməsi deyil, əksinə, hər şeyin toz kimi sovrularaq dərk edilməsidir" (4,s.32).* Düzdür, biz burada bu kimi mülahizəni də qəbul edirik ki, *"Fukonun qırılma və sovrulmalara olan ehtirasının onun marksizmlə bağlı məyusluğu ilə izah edirlər. Bu haqda "Cəmiyyəti qorumaq lazımdır" adlı kitabının ön sözündə E. A. Samarskaya danışır" (4, s. 32)* .

Fakt odur ki, bəhs olunan problemə ekzistensial anlamda yanaşarkən biz – müasir insan tarixən ümid edirik ki, tarixdə baş vermiş sivilizasion inkişafın hər cür ziddiyyətləri artıq tarixdir: hər zaman ümid edirik ki, müasirliyin yeni yaranan texnoloji, elmi, innovativ və informasion üstünlükləri fonunda sabah bu gündən, olsun ki, keçmişdən yaxşı olacaqdır. Hər cür böhranlar baş verməsinə baxmayaraq gələcək barədə proqnozlar daima nikbin əsaslar üzərində qurulur. Lakin biz unuduruq ki, K. Yaspesin təbirincə desək,*"gələcəyə mütləq inam bizi real həqiqətdən məhrum edə bilər. Gələcək xilas barədə proqnozlar bizi indidən real təcrid edə bilər, halbuki əslində bizə məxsus olan təkcə odur" (7, s.230).* Əlbəttə, fəlsəfə üçün bu da aydındır ki, insan həm də mənəvi

varlıqdır, ona görə də bu ümid və inamı insanın əlindən almaq olmaz və ola bilsin ki, dəhşətli müharibələrdən, etnik, milli, coğrafi ideoloji və sivilizasion qarşıdurmalardan, hər cür iqtisadi, siyasi, mədəni humanitar böhranlardan insan nəslini bu ümid gələcəyə - müasir günümüzə daşımışdır. Sonda insan sülhə doğru dönüş etmiş bu və ya digər şəkildə olsa da, dialoq mədəniyyətinin təntənəsinə inanmışdır. Məsələ ondadır ki, tarix barədə söhbət gedərkən *"Fuko fəlsəfədə, cəmiyyətdə, hakimiyyətdə dəyişməz olanın dərki üçün alternativlərin axtarılmasının zəruri olduğunu anlamışdı" (4, s.32).* Bu anlam onu təsdiq edir ki, mütləq proqnozlar və mütləq inamlar, cəmiyyətdə formalaşmış dominant fikirlər tarixin fəlsəfi dərki problemini gündəlikdən, insan varlığının mahiyyətindən çıxara bilər. Biz də israrla bu fikirdəyik ki, dialoq, dialoq mədəniyyəti və kommunikasiya – bütün bunlar tarix barədə təsəvvür edilən monoton iddialardan qaçmaq üçün yeni imkanlar yaradır. Bu onu sübut edir ki, hər cür ziddiyyətlərdən, xaos və qarşıdurmalardan yayınmaq, qaçmaq qurtulma üçün müasir idrakın, insani təfəkkürün, siyasətin, iqtisadiyyatın, hüququn və s. alternativləri mövcuddur. Bu alternativlərin meydana çıxması, anlaşması və mənalandırılması, fəlsəfi interpretasiyaları həm də dialoq, dialoq mədəniyyəti kommunikasiya və s. kimi anlayışların orbitində açılmış olur. Məsələn,*"Qərbdə avropasentrizmə alternativ yanaşmaların olduğunu, bütün tarixin ümumi qanuna tabe olmadığı və onun ayrı-ayrı mərhələlərinin, dövrlərinin mənasını anlamaq üçün müvafiq fəlsəfələrə ehtiyacı olduğunu və s."(4, s.32)* qeyd etmək olar. Lakin bütün bunlara baxmayaraq tarixi proseslər sübut edir ki, "sülh", "sülh" deməklə də iş bitmir və onun həyata keçməsi məsələsi son dərəcə ciddi fəlsəfi problemlər toplusundan asılıdır. Fakt odur ki, filosoflar, psixoloqlar, sosioloqlar, elm adamları və digər mütəxəssislər bütün bu prosesi hər kəs özünün müvafiq sahəsinə uyğun olaraq qiymətləndirsələr də, müşahidə prosesi və statistik analizlər göstərir ki, müasir "bacarıqlı insan", – "texniki insan" M. Haydeggerin təbirincə desək " Das man"- öz yaratdığı vasitələr və münasibətlər sistemi ilə artıq çıxılmaz bir labirintə daxil olmuşdur.

Vaxtilə A. Şopenhauer yazırdı: *"Volter, Yum, Kant nəhayətdə hansı nəticəyə gəlib çıxdılar?" Onların gəldiyi nəticə bundan ibarət idi ki, dünya sağalmaz xəstəliyə düçar olan adamların hospitalıdır" (5, s.178).* Məsələ aydındır, faktlar sübut edir ki, *"sağalmaz xəstəliyə düçar olan adamların hospitalında"* məskunlaşan bu tip insanı heç bir şey qane etmir, o fikirlidir, qayğı indi onun üçün dəhşətli bir yükdür, hər bir şey – həyat, dəyərlər, yüksək mənəvi həzz, susmaq, kommunikasiya, dialoq, mərhəmət ona yad gəlir. Sülh və vəhdət onun üçün elə də ciddi bir əhəmiyyət kəsb etmir, səbəb ondadır ki, axan qan elə bil ki, onu sakitləşdirir. Bunu heç bir elmi vasitələr, fəlsəfə, elm, psixologiya, din sona kimi izah edə bilmir və s. zira ümid sona kimi itirilməyib. Fəlsəfi təfəkkürə bu da aydındır ki, sülhə, birgəyaşayışa, insan nəslinin inkişaf və mövcudluğuna gələn təhlükəli tendensiya kommunikativ yaxud ontoloji yanılmalardan gələ bilər**.** Fakt odur ki, kommunikativ böhran bizə, insanlara xalqlara, cəmiyyət və dövlətlərə elə zəncirvari ziddiyyətlər yaradır ki, bu da hər cür insani qarşıdurmalar, münaqişə və müharibələr törətməkdə postulat, ola bilər ki, bir az da dərinə gedəriksə bütün bunlar onun üçün – insan üçün apriori kimi çıxış edir. Lakin ümid həm də onadır ki, bütün qeyd edilənlərə baxmayaraq *"insan ümumiyyətlə insanlıqdan çıxa bilməz, o yuxuya qərq ola, iştirak etməyə, özünü unuda bilər. Amma insan tarixi təkamül gedişində təkcə onu, fərd kimi məhv olmadığı təqdirdə, yenidən özünə qayıtdığı sahədə, müdhiş halı çıxmaqla, meymuna və qaranquşa və ya dövrümüzə – yəni reflekslər mexanizminə çevrilə bilməz"(7, s.255).*

***Sülh və Vəhdət axtarışı zaman və məkan paralelliyində***

Yuxarıda qeyd edilənlər bizə "zaman" və "məkan" anlayışlarına müraciət etməyə və onun xalqın, dövlətin, insan və sivilizasiyanın, bəşəriyyətin həyatında oynadığı rola nəzər etməyə vadar edir. Vaxtilə alman filosofu Martin Haydegger "Qara dəftərlər" əsərində belə bir fundamental tezisi irəli sürür: *"Məkan xalqın zamanı deyilmi" (1, s. 10)* Daha sonra xalqın, cəmiyyətin, sivilizasiyanın ontoloji mahiyyətində baş verən kommunikativ inkişafdan bəhs edərək filosof izah edir ki, *"məkan və zaman əzəldən "verilmiş" yanlış cütlük deyil, yenidən geri alınmalı olan varlığın təzahürü və başlanğıcıdır" (1, s. 10).* Bütun bu fəlsəfi mülahizələr sübut edir ki, geniş anlamda İnsan və onun

yaratdığı sivilizasiya "zaman" və "məkanda" mövcud olmaqla yanaşı, onun ontoloji, qneseoloji, ekzistensial dialektik və s. mahiyyətini də təşkil edir. Bütövlükdə, vahid sivilizasiya, İnsan və onun yaratdığı dəyətlər, norma və qaydalar, şübhəsiz ki, böyük bir mahiyyət və məna daşıyır. Biz indi tarixin elə mərhələsindəyik ki, zəmanəmiz, hər şeydən əvvəl, elmi-texniki sivilizasiya kimi xarakterizə olunur. Lakin bəhs olunan problematikanın anotomiyası sübut edir ki, tarix olsun ki, bəşəriyyətin yaratdığı sivilizasiyalar tarixi müasir insan tərəfindən hansısa anlamda başqa formada dərk edilir. Texniki güc, elm və bilik pozitiv inkişafa səbəb olmaqla yanaşı, həm də qarşılıqlı anlaşılmazlıqların, müharibə və dağıdıcılıqların, ekspansıyanın ən müxtəlif formalarını da sürətləndirmiş olur.

Beləliklə, yuxarıda irəli sürülən fəlsəfi arqumentasiyalardan yararlanaraq burada belə bir tezisləri qeyd edə bilərik: ***birincisi,*** sivilizasiya tarixi tam halda nəzərdən keçirilərkən aydın olur ki, hər bir dövlət, hər bir xalq, hər bir cəmiyyət tarixən olduğu kimi, müasir epoxada da "zamanda" və "məkanda" öz mövcudluğunu qorumaq və inkişaf etdirmək cəhdindədir; bu elə bir orbitdir ki, bu orbitdə daima yeni-yeni sahələr zaman və məkanlar formalaşır. Filosofun – M. Haydeggerin etiraf etdiyi kimi, zaman və məkan, deməli, dövlət və xalq, cəmiyyət və məkan əzəldən "verilmiş" qoşa anlayışlar deyildir. Bu insan fəaliyyətinin, xalqın, sivilizasiyanın fəaliyyəti nəticəsində, tarixi prosesin nəticəsində əmələ gələn tarixi fenomendir. Başqa tərzdə desək, deməli, aydın görünür ki, filosofun irəli sürdüyü ideyadan çıxış edərək xalqın zaman və məkanda sivilizasion atılışından, təbiətdən ayrıldıqdan sonra tarixiliyi yaratmasından – bizim yaratdığımız nizama, qaydalar və apriorilərə təsir imkanlarını dəyərləndirmək istəsək məlum olur ki, xalqlar, millətlər və dövlətlər, olsun ki, cəm halında sivilizasiyamızı hansısa anlamda kommunikativ böhrandan çıxarmaq üçün "məkanda" ola bilsin ki, həm də paralel olaraq "zamanda" varlığın təbiətində baş verən tarixi ziddiyyətləri *"sındırmaq, qırmaq, yırtmaq, dəlmək, parçalamaq" (1, s.10)* imkanını öz idrakımızda yaratmağa cəhd edərək – tarixi prosesdə unudulmuş kommunikativ "eliksirimizi" yenidən yaradaraq böyük anlamda bəşəri birgəyaşayış modelini yarada bilərik. Bu fəlsəfi inamdır. Fakt odur ki, insan *"yenidən özünə qayıtdığı sahədə, müdhiş halı çıxmaqla, meymuna və qaranquşa" çevrilə bilməz. (7, s. 255)*

***İkinci interpretasiya – regional kontekstdə***: "Məkan" əgər xalqa verilmiş "zamandırsa" biz nəzəriyyədən çıxış edərək ideyanı praktikaya tətbiq edərkən, faktiki olaraq, bu iddianı irəli sürə bilərik: 44 günlük Böyük Vətən müharibəsində Azərbaycanın qələbəsi – onun "zamanın və məkanının" yeni anlamda real olaraq Azərbaycan xalqı üçün bərpası deməkdir. Məhz bu, əsası ulu öndər H. Ə. Əliyev tərəfindən qoyulmuş və Prezident İlham Əliyev tərəfindən son dərəcə siyasi incəlik və müdrikliklə həyata keçirilən strategiya nəticəsində həyata keçirilən bir strategiyadır və bu strategiya Azərbaycan xalqına onun tarixdə itirilmiş "zamanının və məkanının" yenidən qaytarılmasıdır.

***Üçüncü interpretasiya:*** Bu qayıdışın fəlsəfi əsasları Ulu öndər H. Ə. Əliyevin irəli sürdüyü iqtisadi, siyasi, milli ideyalarından öz başlanğıc təcəssümünü tapır, onun bilavasitə həyata keçirilməsi Ali Baş Komandanın, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin düşünülmüş yeni "*rasional alturizm" (8)* siyasəti və yeni liderlik strategiyası ilə bağlıdır. Əlbəttə, biz qəbul edirik ki, bu çox geniş və fundamental mövzudur və onun işlənməsi müasir fəlsəfi, elmi, siyasi və s. ədəbiyyatın qarşısında vəzifə kimi durur.

**Məqaləyə nəticə əvəzi kimi aşağıdakı tezisləri əlavə etmək məqsədə müvafiqdir:**

1 ***"****Məkan əgər xalqa verilən zamandırsa"* 44 günlük Vətən Müharibəsi nəticəsində Ali Baş Komandan İlham Əliyevin itirilmiş torpaqları – Məkanı bizə qaytarması xalqın öz ənənəvi dəyərlərinə, ekzistensial kimliyinə, tarixinə, zamanda yeni mövcudluğuna qayıtması kimi qiymətləndirilməlidir.

2 Aydın olan həqiqətlərdən biri budur ki, bəzən irqlərin, etnik qrupların, millətlərin xarakterində baş verən ideoloji ziddiyyətlər səbəbindən tolerantlıq, multikulturalizm, humanizm və dialoq müstəvisində ən müxtəlif problemlər toplusu çözülmək iqtidarında olmadığından böhranlı şəraiti, başqa xalqlara qarşı aparılan soyqırımı və müharibə iddialarını güc yolu ilə aradan

qaldırmaq zərurəti yaranır. Bu zərurətdən çıxış edərək məhz Azərbaycanın siyasi və hərbi rəhbərliyi Ermənistanın növbəti təxribatı zamanı gücə qarşı gücdən istifadə etməklə Qarabağda yaranmış şər ocağını məhv etdi.

3Bu qələbə müharibə və qan bahasına başa gəlsə də, müşahidələr və nəzəri interpretasiyalar göstərir ki, beynəlxalq miqyasda bəzi hallarda sülh və təhlükəsizliyin təmin edilməsi üçün *"rasional altruizm" (9)* fəlsəfəsinin güc paradiqmasından istifadə etmək vacibdir. Ola bilər ki, müharibənin bu ədalətli variant mexanizmi digər münaqişələrin də aradan qaldırılması üçün bir nümunə kimi istifadə oluna bilər. Lakin gələcəyin fəlsəfəsində dialoq, dialoq mədəniyyəti və kommunikasiya fəlsəfəsi, biliyin qüdrətinə apelyasiya etmiş cəmiyyət, sivilizasiya və xalqlar üçün, dünya insanı üçün əbədi bir mayakdır. Başqa tərzdə ifadə etsək, birlik və konsensusa yol dialoq fəlsəfəsindən keçir, bu müasir Azərbaycan paradiqmasının əsas strategiyasıdır.

4 Azərbaycan həm tarixən, həm də son 30 illik siyasi, humanitar, iqtisadi, mədəni, dialoq platformaları strategiyasında sübut etdi ki, o mədəniyyətin, sülh və təhlükəsizliyin xalqlar, millətlər, dinlər və etnik birliklər arasında birgəmövcudluq, tolerantlıq və multikulturalizm fəlsəfəsinin, deməli, dialoq fəlsəfəsinin həm tərəfdarı, həm də onun dünyada həyata keçirilməsi üçün mədəni, siyasi, iqtisadi aktor kimi yeni dünya nümunəsidir.

5 Şuşa Bəyannaməsindən – *"Tərəflər fəxarət hissi ilə bildirirlər ki, Azərbaycan 44 günlük Vətən müharibəsi ərzində qələbə qazanaraq Ermənistanın 30 ildən bəri davam edən təcavüzkar siyasətinə son qoydu, torpaqlarını işğaldan azad etdi, tarixi ədalətin zəfər çalmasını və beynəlxalq hüququn bərpa olunmasını təmin etdi"(11).*

6Dinlərin, mədəniyyətlər və sivilizasiyaların dialoqu, sülh və təhlükəsizlik problemi ideyası tarixən nəzəriyyə və praktikanın bir nömrəli həyati problemi kimi çıxış etsə də, regionda baş verən proseslər göstərir ki, o tarixin heç bir dönəmində Cənubi Qafqaz regionu üçün indiki qədər aktuallıq kəsb etməmişdir. Azərbaycanın yeni yaratdığı sülh strategiyası nəinki Cənubi Qafqaz üçün, o həm də region xalqları üçün Məkan və Zaman paralelliyini yaradan bir yeni reallıqdır. Bu baxımdan Şuşa Bəyannaməsi yalnız regional təhlükəsizliyin təmin edilməsini işində deyil, o həm də bəşəri sülhün, insani birliklərin vəhdəti təcəssüm etdirən prinsipləri kimi çıxış edir.

7Hazırda baş verən prosesin fəlsəfəsi sübut edir ki, dialoq mədəniyyətinin formalaşması indi regional stabilliyin təmin edilməsi üçün ən vacib şərt kimi çıxış edir. Bu fəlsəfə qlobal anlamda Yeni "zaman" və "məkan" imkanlarını yarada bilər.

8Sülh və təhlükəsizliyin təmin edilməsində dialoq mədəniyyətinin formalaşması problemi indi həm də Yer üzündə ekzistensial və kommunikativ böhranda olan insanın, geniş kütlələrin, xalqların həyatında gələcəyə ən böyük ümid yarada bilər.

Beləliklə, biz əgər boyük qlobal sülhdən və həmrəylikdən bəhs ediriksə, qeyd etməliyik ki, müasir sivilizasiyanın öz davamlı inkişafını təmin etmək üçün – Yeni "məkan və zaman" imkanı vardır. Bu zaman və məkan əvvəlcə insanın təfəkküründə, daha sonra isə real gerçəklikdə yaranır. Bizim, insan nəslinin Yer kürəsində məkanı genişləndirmək imkanlarımız olmasa da, onu – "məkanı" ontoloji anlamda yenidən İnsan nəslinə qaytara bilərik, bu bütövlükdə İnsana verilmiş müasir "zaman" olardı. Başqa sözlə desək, İnsan nəsli Yer üzündə öz məkanını tapmışdır, amma onun idrakı olaraq Yeni zamanı yaratmasına və onun praktikaya tətbiqinə – dialoq mədəniyyətinə ciddi ehtiyacı vardır.

**İstifadə olunmuş ədəbiyyat**


1. Dugin A. G. Geosofiyaya giriş: sivilizasiya və onların loqosları. Tərcümə edən, H. Babayev. Bakı: Elm və təhsil nəşriyyatı, 2018, 88 səh.
2. Qurbanov F., Mədətli E. Bir millət-iki dövlət: fəlsəfi-tarixi təhlil. Bakı, 2020, 232 səh.
3. Filosofiya Martina Khaydeggera i sovremennost'. Red. kol. Motroshilova N. V.[otves. red.] Bibikhin V.V. i. d. – M.: Izdatel'stvo Nauka, 1991.

4. Məmmədzadə İ. Bir daha fəlsəfə haqqında. Müasir yanaşmalar. Təmayüllər. Perspektivlər. Bakı: "Elm və təhsil"-2020, 200 səh.
5. Şopenhauer A. Müxtəlif Predmetlər Haqqında düşüncələr. Bakı: QANUN, 2018, 192 səh.
6. Shpengler O. Zakat Yevropy. V 2-kh t, T.1, Moskva:Ayris-press,2006,528 s.
7. Yaspers K. Tarixin mənası və təyinatı, Bakı: "Zəkioğlu", 2008, 764 s.
8. Zabluzhdayushchiysya razum?: Mnogoobraziye vnenauch. znaniy Otv.red.i sost. I.T.Kasavin. – M.: Politizdat, 1990. – 464 s.
9. Zeynalov Ş. Ə. Dialoq fəlsəfəsi. Bakı: "Avropa", 2017, 304 s.
10. Zeynalov Ş. Ə. Dialoq mədəniyyəti və müasirlik. Bakı: "Avroba",2020,330 s.
11. https://president.az/az/articles/view/52115 Şuşa Bəyannaməsi :
12. https://tass.ru/politika/12727931 Valday Klubunun XVIII plenar iclası. "Qlobal sarsıntı - XXI: insanlar, dəyərlər, dövlət"

## THE PROBLEM OF COMMUNICATION'S CULTURE AND DIALOGUE: IN THE CONTEXT OF SPACE-TIME PARALLELISM

**Sholat Zeynalov**

**Abstract.** The article examines the problems of war, peace, dialogue, communication, dialogue of culture, science, knowledge, etc., which are of great importance in the modern system of relations, they are considered from the point of view of philosophy. It is noted that despite the vast opportunities created by science and technology, on the one hand, they contribute to human well-being, facilitate labor, accelerate "time" and the availability of "space", but on the other hand, they create growing contradictions between people, states and societies. . According to the author, in order to find a common way to resolve and explain the various contradictions that are taking place in the world today, it is necessary to refer to these communicative concepts. The study also provides a theoretical overview of Azerbaijan's strategy in the field of security, peace, dialogue and communication.

**Purpose:** To show the philosophical and practical relevance of paradigms such as dialogue, dialogue culture and communication in the modern system of relations in the problem of coexistence and peace.

**Methodology:** comparative analysis, dialectical, empirical, scientific method, methods of analysis and synthesis.

**Scientific novelty:** To provide historical and modern interpretations of knowledge, dialogue culture and communicative reflections in the work of coexistence and peace;

- Approach to the paradigm of peace and coexistence implemented by Azerbaijan in the context of time and space parallelism in the context of the philosophy of dialogue

**Keywords:** Time, space, history, war, peace, culture of dialogue , communication, Azerbaijan.

## ПРОБЛЕМА КУЛЬТУРЫ ОБЩЕНИЯ И ДИАЛОГА: В КОНТЕКСТЕ ПРОСТРАНСТВЕННО-ВРЕМЕННОГО ПАРАЛЛЕЛИЗМА

**Шолат Зейналов**

**Резюме.** В статье исследуются проблемы войны, мира, диалога, коммуникации, диалога культуры, науки, знаний и т. д., которые имеют большое значение в современной системе отношений, и которые рассматриваются с точки зрения философии. Отмечается то, что несмотря на обширные возможности, создаваемые наукой и техникой, с одной стороны, они способствуют благополучию человека, облегчению труда, ускорению «времени» и

доступности «пространства», а с другой стороны, они создают усиливающиеся противоречия между людьми, государствами и обществами. По мнению автора, для того чтобы найти общий способ разрешения и пояснения различных противоречий, происходящих сегодня в мире, необходимо обращение к этим коммуникативным понятиям. В исследовании также представлен теоретический обзор стратегии Азербайджана в области безопасности, мира, диалога и коммуникации.

**Цель**: показать философскую и практическую актуальность диалога, культуры диалога и общения в современной системе отношений в проблеме сосуществования и мира. Показать философскую и практическую актуальность таких парадигм, как диалог, культура диалога и общение в современной системе отношений в проблеме сосуществования и мира.

**Методология:** сравнительный анализ, диалектический, эмпирический, научный метод, методы анализа и синтеза.

**Научная новизна:** обеспечить историческую и современную интерпретацию знаний, диалоговую культуру и коммуникативные размышления в работе сосуществования и мира, а именно, подход к реализуемой Азербайджаном парадигме мира и сосуществования в контексте пространственно-временного параллелизма в контексте культуры диалога.

***Ключевые слова:*** Время, пространство, история, война, мир, культура диалога, коммуникация, Азербайджан.

**Göndərilib: 02.03.2022** **Qəbul edilib: 27.03.2022**